Azərbaycan Respublikası
Təhsil Nazirliyi

Dostlar, diqqətli olun!

Dostlar, diqqətli olun!
Virusu qorxutmağın
Yolunu sizə deyim:
Əllərimi sabunla
Yaxşıca yuyuram mən.
Dərsdə, tənəffüsdə də,
Spirtləyib silirəm.
Üzümə toxunmuram,
Gözlərimi ovmuram,
Qapının dəstəyinə,
Dostumun kitabına,
Dəftər-qələminə
Əllərimi vurmuram!
Oynasaq, sevinsək də,
Danışsaq da, gülsək də,
İki addım ara var
Həmişə aramızda.
Soruşun, deyim, niyə?
Çünki belə edəndə
Həm özümü, həm sizi
Düşünüb qoruyuram,
Virusu da qovuram!

Dostlar, diqqətli olun!

Əllərimizi tez-tez sabunla yuyaq!

Ətrafdakılarla ara məsafəsi saxlayaq!

Bilmədiklərimizi böyüklərdən soruşaq!

Üzümüzə, gözlərimizə toxunmayaq!

Bildiklərimizi dostlarla bölüşək!

Azərbaycan Respublikası Təhsil Nazirliyi